# Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi

*Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin əməkdaşları* il ərzində 11 elmi tədqiqat işi üzərində işləyib. Həmin tədqiqat işləri Nasir Mənzuri (Azərbaycan ədəbiyyatı tarixinin VII cildi üçün), Məhəmmədhüseyn Şəhriyar, Cavad Heyət, Mirzə Əli Talıbov, Həsən Məcidzadə Savalan, Gəncəli Səbahi, Pərvin Etisami, Bağçaban, Həmid Nitqi, Məmmədəli Sabit və Haşim Tərlanın həyatı, mühiti və yaradıcılığı haqqında olub.

Şöbədə il ərzində 2 kitab tərtib edilib. *Prof. T.Əhmədov* "Məhəmməd Hüseyn Şəhriyar" (Seçilmiş əsərləri) kitabını, *prof.R.Əliyev, b.e.i. L.Mirzəyeva, e.i. F.Süleymanoğlu, e.i.S.Daşdəmirova, e.i. K.Məmmədova* Cənubi Azərbaycan ədəbiyyatı antologiyasının ikinci cildini tərtib ediblər. Əməkdaşlar 5 kitab tərcümə edib. *F.ü.f.d. Esmira Fuadın* "Rəsul Qədirinin Tanrı bilsin, bir də könül", (Bakı, 2018, 387 s), Saleh Səssadinin işıqdan danışaq (Bakı, 2018, 79 s), "Günümüzün Güney Azərbaycan antologiyası" (Bakı, 2018, 1032 s), Rəsul Qədirinin "Tanrı bilsin, bir də könül" (Bakı, 2018, 376 s.), Nazim Rizvanın "Yarımçıq Vüsal" (13, 2018, 452 s.) kitabları, *f.ü.f.d. M.Mehdibəyovanın* "Z.Marağayinın "İbrahimbəyin səyahətnaməsi" romanı (13, 2018) və f.ü.f.d. *Esmira Fuadın* "Unutdun məni" şeirlər silsiləsi "Plyus bədii yaradıcılıq" ədəbi almanaxında (2018) çap olunub.

Şöbə əməkdaşlarının il ərzində 65 məqaləsi çap edilib, onlardan 7 məqalə xarici mətbuatda işıq üzü görüb.

*F.ü.f.d. Esmira Fuad* 12 məqalə çap etdirib. Onlardan biri ("Women in the poetry of Shahriyar") "Text" Beynəlxalq Tomson Reuters jurnalında çap olunub (mart 2018). Müəllifin XX əsr Güney Azərbaycan ədəbiyyatı bədii fikir tariximizin ayrıca bir mərhələsi kimi", "XX əsr Güney Azərbaycan epik şeiri" və "Çağdaş Güney Azərbaycan epik şeirinin qaynaqları" adlı yazıları da fərqli saytlarda özünə yer alıb.

İl ərzində 29 məqaləsi çap etdirmiş *f.ü.f.d. Pərvanə Məmmədlinin* əsərləri yerli və xarici mətbuat orqanlarında işıqlandırılıb. Müəllifin "Klassik irsimizin araşdırılması məsələləri Cənub müstəvisində" məqaləsi "Elm və innovativ Texnologiyalar" adlı beynəlxalq jurnalda (2018, №3), "Əcəb bilsəm mənə lütfi şeyda qılan kim" məqaləsi "Xudafərin", "Qulamhüseyn Beqdeli" məqaləsi "Varlıq" jurnalında (2018, №5), "Ünlü rus yazarlarının əsərlərində Türkiyə" məqaləsi "Türkiye okuyor" qəzetində (2 ocaq 2018), "İrak türkmanlarının pervanesi-Qazanfer Paşayev" məqaləsi "Türkiye okuyor" (4 mart 2018), "31 mart Azerbaycan Türklerinin unutulmaz trajedisi-soykırım günüdür ("Türkiye okuyor", 2 nisan 2018), "Bağımsızlığımız yıkılmaz, devletimiz ebedi olsun" məqalələri "Türkiye okuyor" (9 hazıran 2018) qəzetində, "Xalqın" sevgisinə sadiq qalan şair vətəndaş" məqaləsi "Ədəbi əlaqələr" yurnalında (2018,

№1), “Biz Türküz, Soyumuz Türk! Söyleyen Kaşkay türkleri” məqaləsi (eylul 2018), “Türkiye okuyor”da, “Ədəbiyyatı milli azadlıq hərəkatına bağlı olan xalq” məqaləsi “Ədəbiyyat məcmuəsi”ndə (2018, №2) “Procesul literar din Azerbaidjan” məqaləsi “Indexed by Thomson yurnalında (Bushasert: Editura acad Romane Vol. LXIII, 2018), “Literary process in Southezn Azerbaijan” məqaləsi “Indexed by Thomson” (2018) jurnalında, “Türk halklarının hapishanesinden veliliye dönüşen ölke” məqaləsi “Türkiye okuyar”da (04 ekim, 2018), “Kipris türklerinin mücadile savaşı dastanlarda” məqaləsi “Türkiye okuyor”da (4 temmus 2018), The advantage of Turkish longuages” məqaləsi “Mir Azerbaydjana” yurnalında (2018, № 2), “İdeyno-xudojestvennıe osobennosti povestey Akima Tarazi” (Fenomen tvorçestva Akima Tarazi v literature i iskusstve XX-XXI vekov) məqaləsi Astanada, The theme “Azerbaijan”of Reza Beraheni’s works in exile period” məqaləsi Koliforniyada çap olunub.

*M.Mehdibəyovanın 5, L.Mirzəyevanın 1, F.Süleymanoğlunun 6, S.Daşdəmirovanın 1, E.Bağırovanın 2, Z.Zeynalovanın* 2 məqaləsi əsasən “Füyüzat”, “Xudafərin” yurnalarında, “Cənubi Azərbaycan ədəbiyyatı” adlı tədqiqlər kitabında, *F.Süleymanoğlunun* “Bulut Karaçurlu Sehend’in sosyal-politik düşünceleri üzerine notlar” məqaləsi Van Yüzüncü Yıl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisində (Yıl 2018, 42), “Səhəndin soyadının mənşəyi və yazılış variantları” məqaləsi “Müasir şərqşünaslığın aktual problemləri” beynəlxalq Konfransının materiallarında (16-17 oktyabr 2017. Bakı, 2018, s.459-461), “Osmanlı hakimiyyəti dönəmində Tiflis əyalətinin Somxit nahiyəsində türk varlığı (1723-1728)” məqaləsi “Azərbaycan Şərqşünaslığı”, (№ 116) məcmuəsində çap edilib.

İl ərzində şöbə əməkdaşlarından *Esmira Fuad və Pərvanə Məmmədli* fərqli mükafatlara layiq görülüb.

Hazırladı:

***Əlizadə Əsgərli***

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmlər doktoru, professor

***Teymur Əhmədov***

Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmlər doktoru, professor